


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 64 (24.201)

*12 aprel 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Bosniya və Herseqovinanın təhlükəsizlik nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi sahədə çox yaxşı səviyyədə olduğu bildirildi, əlaqələrimizin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi qeyd olundu və bu əlaqələrin genişləndirilməsi üçün önəmli addımların atıldığı vurğulandı.

Söhbət zamanı yüksək səviyyədə keçirilən görüşlərin münasibətlərimizin inkişafı və perspektivlərin müzakirəsi baxımından önəmi qeyd edildi, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi, Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin ölkəmizə səfərinin bu işə töhfə verəcəyinə ümidvarlıq ifadə edildi.

Görüşdə COVID-19 dövründə, həmçinin Bosniya və Herseqovinada baş vermiş daşqınlar zamanı Azərbaycanın göstərdiyi dəstək bir daha yüksək qiymətləndirildi.

**AZƏRTAC**

## “Heydər Əliyev İli” tədbirləri çərçivəsində humanitar tibbi aksiyalar keçirilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi “Heydər Əliyev İli” tədbirləri çərçivəsində humanitar tibbi aksiyaların təşkilini davam etdirir. Növbəti humanitar tibbi aksiya Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində olub. Belə ki, Səhiyyə Nazirliyinin yüksəkixtisaslı həkim briqadası tərəfindən Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin məhkumları tibbi müayinədən keçirilib.



Aksiya çərçivəsində 104 nəfərdən infeksiyaların təyini üçün qan nümunəsi götürülərək laborator tibbi müayinədən, 15 nəfər nevroloji, 10 nəfər kardioloji, 19 nəfər uroloji, 6 nəfər oftalmoloji, 8 nəfər stomatoloji, 6 nəfər EKQ, 18 nəfər ultrasəs, 128 nəfər isə flüoroqrafik müayinədən keçirilib.

Profilaktiki müayinə zamanı məhbuslar arasında ciddi, ağır xəstə aşkar edilmədiyindən yüngül şikayəti olanlara ixtisas həkimləri tərəfindən ambulator müalicələr təyin edilib. Eyni zamanda sağlamlığın qorunması istiqamətində tibbi maarifləndirici məsləhətlər də verilib.

***

Sədərək Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin həkim komissiyası tərəfindən Dəmirçi kənd həkim ambulatoriyasında da analoji humanitar tibbi aksiya keçirilib. Ümumilikdə, 58 nəfərin iştirak etdiyi aksiya çərçivəsində ixtisaslı həkim heyəti tərəfindən rayon sakinlərinə kardioloji, terapevtik, lor, pediatrik və cərrahi müayinələr icra olunub.

Hər hansı bir patologiya aşkar olunmuş şəxslər müvafiq xəstəxanalara yönləndirilib. Aksiyada həkimlər tərəfindən, həmçinin tibbi maarifləndirici məsləhətlər verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## S.Ə.Seyidəhmədlinin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Samir Əhməd oğlu Seyidəhmədli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 aprel 2023-cü il*

## Akademik Zərifə Əliyevanın 100 illik yubileyi onun adını daşıyan məktəbdə qeyd olunub

*Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin həkim, rezident və tələbələrinin iştirakı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Akademik Zərifə Əliyeva adına Kəngərli rayon Şahtaxtı kənd tam orta məktəbində tədbir keçirilib.*



Əvvəlcə tədbir iştirakçıları görkəmli akademikin məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyub, alimin həyat və fəaliyyətini əks etdirən muzeylə tanış olub, sonra məktəbin II Qarabağ müharibəsində qəhrəmancasına şəhid olmuş məzunları üçün ayrılmış guşəyə baxıblar.

Məktəbin müəllim və şagirdləri ilə keçirilən görüşdə rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlı akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən, yüksək mənəvi keyfiyyətlərindən danışıb. Bildirilib ki, Zərifə xanım tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, traxomanın müalicəsində daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotiklərdən-sintomisindən istifadə olunmasına həsr edib. 1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayıb. Akademik bir sıra orden və medallara, mükafatlara layiq görülüb, Elmlər Akademiyasının akademiki seçilib, “Əməkdar elm xadimi” fəxri adını alıb. O, respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanıb. Alimin elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib, bundan sonra da təsir göstərəcək.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev Prezident cənab İlham Əliyevin “Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2022-ci il 3 noyabr tarixli Sərəncamından sonra ölkəmizin elm və təhsil müəssisələrində, səhiyyə sistemində görkəmli elm xadiminin yubileyinin geniş qeyd olunduğunu diqqətə çatdırıb. Bildirilib ki, akademikin çoxcəhətli elmi və tibbi fəaliyyəti təkcə öz dövrü üçün deyil, bu gün üçün də mühüm əhəmiyyət kəsb edir və aktuallığını qoruyur.

Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin direktoru Ehtimad Məmmədov, universitetin Ümumi təbabət və klinik fənlər kafedrasının müdiri, dosent Gültəkin Əliyeva, həmin kafedranın müəllimi, tibb üzrə fəlsəfə doktoru Nüsrət Həsənov akademik Zərifə xanım Əliyevanın ömür yolu, dünya şöhrətli alimin Azərbaycan tibb elminin inkişafındakı fəaliyyətindən və oftalmologiya sahəsində qazandığı nailiyyətlərdən danışıblar.

Sonra akademikin həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva Tibb fakültəsinin mütəmadi olaraq orta ümumtəhsil məktəbləri ilə keçirilən “Sağlam gənclik, sağlam gələcək” layihəsi barədə məlumat verib.

Tələbələr slaydlarla və əyani üsullarla kliniki ölüm zamanı təxirəsalınmaz yardım, yuxarı tənəffüs yollarına yad cismin düşməsi, koma vəziyyəti, burxulmalar, zəhərlənmələr, yanıqlar, məktəblinin düzgün qidalanması, fiziki aktivlik, uşaqlarda artıq çəki və piylənmə, həmçinin şəkərli diabet barədə öz təqdimatlarını ediblər.

Stomatologiya kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Rauf Cəfərov və onunla birgə bu ixtisası təcrübi cəhətdən mənimsəyən tələbələr şagirdlərin dişlə bağlı problemləri ilə maraqlanıb, səyyari diş xidmətində müayinələr aparıblar.

Tibb fakültəsi əməkdaşlarının müəllifi olduğu 20-yə yaxın kitab, dərslik, dərs vəsaiti, monoqrafiya, 50-yə qədər buklet məktəbin kitabxanasına hədiyyə edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Miqrasiya proseslərinə nəzarət günün tələblərinə uyğun aparılır



Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər mart ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, bir yerdən başqa yerə getdikdə olduğu yer və yaşayış yeri üzrə qeydiyyat qaydalarına əməl etməyən, ölkədə olma və ya yaşama müddəti qurtardıqdan sonra getməkdən boyun qaçıran, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 36 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 1204 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 811-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 393 müraciət qeydə alınaraq icrası təmin olunmuş, müraciətlərdən 104-ü elektron poçt üzərindən qəbul edilmiş, o cümlədən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri reallaşdırılmışdır.

Ölkə vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya sahəsini əhatə edən və bu sahədə maraqdoğuran müxtəlif mövzularla bağlı suallarını Dövlət Miqrasiya Xidmətinin *202* Miqrasiya Məlumat Mərkəzinə, *miqrasiya.nakhchivan.az* saytının e-mail ünvanına və ya xidmətin rəsmi “Facebook” (Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti) və “Instagram” (nmr_miqrasiya_xidmeti) sosial şəbəkələrinə ünvanlayaraq ətraflı məlumat əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Gözlərə nur bəxş edən böyük insan



***Akademik Zərifə xanım Əliyevanın həyat və tale kitabını vərəqlədikcə onun həm nəcib bir insan, görkəmli alim, həm də xalqını, elini, yurdunu, Vətənini dərin məhəbbətlə sevən bir vətəndaş olduğunu görürük. Hər zaman yaddaşımızda yaşayan görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın bir üstünlüyü var idi. O, insanların gözünə nur verir, minlərlə insana gözəl dünyamızı görmək sevinci bəxş edirdi. Gözlərə işıq, qəlblərə nur bəxş edən, dünyaya gəlişi bahara düşən Zərifə xanım Əliyeva elə bir bahar günündə – 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. Azərbaycan tibb elminin korifeylərindən olan akademik Zərifə Əliyeva qayğıkeş insan, böyük alim, əsil ziyalı kimi bütün elm və tibb ictimaiyyətinin yaddaşına əbədi həkk olunmuşdur.***

Sağlığında xalqı üçün gördüyü işlərlə mənəvi ucalığa yüksələn görkəmli oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, elm adamı, habelə tibb işçisi üçün mənəviyyat, kamillik və müdriklik məktəbidir. Zəngin elmi yaradıcılıq irsi ilə Azərbaycan oftalmologiyasını dünyada tanıdan yüksək intellekt sahibi akademik Zərifə Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir. Monumental əsərləri, elmi nailiyyətləri, pedaqoqluq səriştəsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Aydın görünür ki, Zərifə xanım Əliyeva uzun illər gərgin elmi-praktik çalışmaları ilə peşə təcrübəsini artırarkən bu sadə həqiqəti özünün həyat kredosu seçib: həqiqi elm təkcə özünütəsdiq imkanı deyil, həm də Vətənə, xalqa, dövlətə layiqli xidmət vasitəsidir.

Həyat fəlsəfəsi və mənəvi dünyası kifayət qədər zəngin olan, oftalmologiya elminin inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyevanın xatirəsi bu gün də insanların qəlbində yaşayır, əziz tutulur. Elə bunun nəticəsidir ki, görkəmli alimin xatirəsi ilə bağlı müxtəlif anım tədbirləri keçirilir, mənalı ömür yoluna nəzər salınır.

Yüksək mənəvi keyfiyyətləri ilə elmi, dünyagörüşü bir-birini tamamlayan insanlar əsl şəxsiyyətlər kimi cəmiyyətdə layiqli mövqe qazanırlar. Akademik Zərifə xanım Əliyeva da belə nurlu şəxsiyyətlərdən biri idi. Mehribanlıq, həssaslıq, ziyalılıq, bir sözlə, insanlığa xas bütün müsbət cəhətlər onun nəcib simasında qovuşmuşdu.

Bu il 100 illik yubileyini qeyd etdiyimiz Zərifə xanım Əliyeva 1923-cü il aprel ayının 28-də Şahtaxtı kəndində görkəmli dövlət və elm xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Onun uşaqlıq çağlarının ilk dövrləri Şahtaxtı kəndində keçmiş, sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə təhsilini əla qiymətlərlə başa vuraraq Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. Elmi tədqiqatlara sonsuz marağı Zərifə xanım Əliyevanı Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmış, orada həkim-ordinator kimi işə başlamışdır. Həmin institutda onun elmi tədqiqatlara marağı bir qədər də yüksəlmişdir: 1950-ci ildə aspiranturaya daxil olmuş, aspiranturanı bitirdikdən sonra respublika Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. Həmin illərdə Azərbaycanı traxoma göz xəstəliyi bürüsə də, buna qarşı təsirli müalicə üsulları yox idi. Xəstəliklə mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublika səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım Əliyeva traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edirdi. Konkret müalicə təcrübəsindən başqa, o, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında söhbətlər aparırdı.

Beləliklə, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirirdi. İstedadlı həkim tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, dəqiq desək, traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən – sintomisindən istifadə olunmasına həsr etdi. Bu tədqiqatların nəticələri alimin 1960-cı ildə müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etdi. Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işlərini yekunlaşdırdıqdan sonra Zərifə xanım oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqatlar aparmağa başladı, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı araşdırma işlərini genişləndirdi. Həmin tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin mətbuatda dərc olunması klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin artırılmasına da kömək etdi.

1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışdı, 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən ona Oftalmologiya ixtisası üzrə böyük elmi işçi adı verildi. 1967-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olundu. Həmin dövrdə Zərifə xanım Əliyeva həkimlik fəaliyyəti ilə məşğul olur, cərrahiyyə əməliyyatları edir, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparırdı. Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə ciddi məşğul olmasına baxmayaraq, elmi-tədqiqat işlərinin davam etdirilməsinə də böyük əhəmiyyət verirdi. Həmin dövrdə onun diqqət yetirdiyi aktual məsələlər sırasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tuturdu.

Zərifə xanım Əliyevanın diqqətini, əsasən, oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının patologiyası da cəlb edirdi. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin, demək olar ki, elmi şəkildə tədqiq olunmaması ilə əlaqədar idi. 1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Bir sıra mühüm elmi məsələlərlə yanaşı, müxtəlif peşələrlə əlaqədar əmələ gələn göz xəstəliyi problemlərinə xüsusi diqqət yetirir, yod sənayesi, neft-kimya müəssisələrində çalışan şəxslərin görmə orqanlarına təsir edən amilləri araşdırırdı. Tədqiqatçılıq qabiliyyəti yüksək olan Zərifə xanım həmin problem üzərində işləyərkən tez-tez sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevaya doktorluq dissertasiyasının yazılması zamanı da çox gərəkli olmuşdu. Tədqiqatçı-alim “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Dissertasiyanın mövzusu və məzmunu bu sahədə ilk tədqiqat əsərlərindən biri kimi alim-oftalmoloqlar tərəfindən yüksək qiymətləndirilmişdir. 1977-ci ildə alimə “tibb elmləri doktoru” elmi dərəcəsi verilmişdir. Doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru, 1983-cü ildə isə həmin kafedranın müdiri seçilmişdir. İlk gündən ətrafına istedadlı gəncləri toplayaraq elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil etməyə başlamışdır.

Akademik Zərifə xanım Əliyevanın elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir.

Görkəmli alimi həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Zərifə xanımın çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, “Yüksək etimad” kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. Akademik Zərifə xanım Əliyeva səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir.

Zərifə xanım həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Alim həkim-xəstə münasibətlərinə toxunaraq insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş və “həkim xəstənin ən doğma adamıdır” demişdir. Zərifə xanımın tibbi etika və deontologiyaya dair məqalə və əsərləri ilə yaxından tanış olduqda, onun bu sahəyə dair işlərinin daha geniş miqyasda olduğu və təkcə tibbdə deyil, bütövlükdə, cəmiyyətdə insanlar arasında münasibətlərə həsr edildiyi məlum olur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: ***“Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə elə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın”.***

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. O həmin mükafata layiq görülən ilk alim qadın idi.

Tanınmış alim böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. O, ömrü boyu fəal ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin üzvü və “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlərə görə “Azərbaycanın Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Hələ 1949-cu ildə Moskvadan təkmilləşdirmə kursundan yenicə qayıtmış gənc Zərifə xanım nümayəndə heyətinin tərkibində Azərbaycan Oftalmologiya İnstitutunun ordinatoru kimi Naxçıvanda keçirilən səyyari seminarda öz təcrübəli həmkarları ilə bərabər iştirak etmişdir. Akademik Zərifə xanım Əliyevanın əldə etdiyi elmi və praktiki nailiyyətləri çox həvəslə Naxçıvan torpağında tətbiq olunmuşdur. Belə ki, ilk dəfə olaraq traxoma xəstəliyinin müxtəlif mərhələlərdə sintomisin emulsiyası ilə müalicə metodu, gözün herpetik xəstəlikləri, virus konyuktivitləri, gözyaşı yolları xəstəlikləri, şəkər retinopatiyası, qlaukoma və başqa xəstəliklərdə akademik Zərifə xanım Əliyevanın təklif etdiyi iridodiaqnostika müayinəsi, yeni terapevtik və cərrahi müalicə üsulları Naxçıvanda geniş tətbiq edilərək yüzlərlə insanın gözünün nurunun özünə qaytarılmasına səbəb olmuşdur. Naxçıvanda oftalmologiya sahəsi ilk dövrdə mərkəzdən gələn kadrlar tərəfindən təşkil və idarə olunsa da, XX əsrin ikinci yarısında bu sahədə bacarıqlı yerli kadrlar ordusu yetişmiş və bu sahəni lazımi səviyyəyə qaldırmağa müvəffəq olmuşlar. Bu nailiyyətlərin əldə edilməsində isə akademik Zərifə xanım Əliyevanın xidmətləri unudulmazdır.

Elmi və ictimai fəaliyyəti ilə yanaşı, Zərifə xanım Əliyeva, eyni zamanda qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı idi. O, Ümummilli Liderimiz Heydər Əliyevlə birlikdə qəlblərində daim Vətən sevgisi yaşadan, xalqı üçün çalışan övladlar böyütmüşdür. Görkəmli alimin qəlblərdə yaşayan əziz xatirəsini və xidmətlərini xalqımız daim minnətdarlıq hissi ilə anır. Bu böyük şəxsiyyətin keçdiyi həyat yoluna nəzər salarkən aydın görmək mümkündür ki, elmi tədqiqatların bacarıqlı təşkilatçılığı, dərin elmi düşüncə və parlaq pedaqoji istedad onun şəxsində üzvi surətdə qovuşmuşdur. Böyük-kiçikliyindən asılı olmayaraq, məşğul olduğu sahələrin hamısı Zərifə xanımın istedadı və fədakarlığı sayəsində aparıcı istiqamətə çevrilmiş və bir nümunə səviyyəsinə qalxmışdır. Bu gün istisnasız olaraq demək mümkündür ki, Zərifə xanım Əliyeva həm həkimliyin, həm alimliyin, həm pedaqoqluğun, bunlarla yanaşı həm də insanlığın ali zirvəsinə yüksəlmişdir.

*Görkəmli oftalmoloq-alim Zərifə xanım bütün ömrünü insanların gözlərinə nur, işıq bağışlamağa həsr etmişdir. Bu ömrün mənası zülmət və qaranlıqla mübarizə aparmaqdan ibarət olmuş, işığını itirmiş gözlərə nur vermək istəyi onun parlaq obrazını qeyri-adi bir nəcibliyə qovuşdurmuşdur. Gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyevanın işıqlı və nurlu əməlləri bu gün də yaşayır və xatırlanır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi:* ***“Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır”.***

**Gültəkin ƏLİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Ümumi təbabət klinik fənlər kafedrasının müdiri, dosent, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi***

## Babək Rayon İcra Hakimiyyətinin saytı “*GOV.AZ*” zonasına köçürülüb

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin elektron informasiya resursu yeni *“babek-ih.gov.az”* domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb.




Yenilənmiş internet səhifəsi Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb.

Saytın optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, “Google” axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə domenə bağlı e-poçt adresi ilə *(mail@babek-ih.gov.az)* təmin olunub.

Qeyd edək ki, muxtar respublikada digər rayon (şəhər) İcra hakimiyyətlərinin də internet səhifələri yenilənməkdədir ki, onların da audit yoxlamaları aparıldıqdan sonra “GOV.AZ” domen zonasına köçürülməsi diqqətdə saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Su ehtiyatlarından səmərəli istifadə qarşıda duran əsas vəzifədir

*Su Yer kürəsində olan bütün canlı varlıqların yaşaması, inkişafı istiqamətində ən vacib komponentlərdən biridir. Yəni susuz həyatı təsəvvür etmək qeyri-mümkündür. İstifadə etdiyimiz bütün ərzaq məhsullarının, demək olar ki, hamısının tərkibi su ilə bağlıdır. Onu da qeyd edək ki, insan bədəninin çox hissəsini də su təşkil edir. Bəs, əhalinin həyatı üçün bu qədər gərəkli olan içməli və təsərrüfat suları ilə təminatı istiqamətində muxtar respublikamızda hansı tədbirlər görülür?*

Bu barədə müsahibimiz olan Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Su ehtiyatlarından istifadə şöbəsinin müdiri ***Səttar Nəsirov*** bildirir ki, su ehtiyatlarından səmərəli istifadə, əhalinin içməli və təsərrüfat suyuna olan ehtiyacının ödənilməsi daim ölkə rəhbərinin diqqət mərkəzindədir. Son illərdə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahədə reallaşdırılan infrastruktur layihələri, təsdiq edilən Dövlət proqramları, həyata keçirilən sistemli tədbirlər ölkənin etibarlı su təchizatına nail olunmasında mühüm rol oynayıb. Dövlətimizin başçısının müvafiq göstərişlərinə əsasən mütəmadi olaraq dövlət büdcəsindən regionların, o cümlədən muxtar respublikamızın su təchizatının yaxşılaşdırılması üçün vəsaitlər ayrılır, əhalinin içməli və təsərrüfat suları ilə bağlı yaranan çətinliklərinin aradan qaldırılması üçün işlər görülür. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti də öhdəliyinə düşən vəzifələri mütəmadi icra edir. Belə ki, cəmiyyətin tabe idarələri tərəfindən ilin əvvəlindən tərtib olunmuş qrafikə uyğun olaraq muxtar respublika ərazisində olan kanallarda, nasos stansiyalarında, eləcə də digər hidrotexniki qurğularda, həmçinin torpaq sahələrinin su təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işləri həyata keçirilir, torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq məqsədilə kollektorlar, sututarlar lildən təmizlənərək istifadəyə verilir.

Müsahibim bildirir ki, son illərdə yağıntının miqdarının az olması yeraltı suların ümumi səviyyəsinin aşağı düşməsi ilə nəticələnib. Məhz bu amillər nəzərə alınaraq yarana biləcək problemlərin vaxtında və operativ aradan qaldırılması üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 9 mart tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında içməli və suvarma sularının böhranlı vəziyyətində idarə olunmasına dair Tədbirlər Planı" təsdiqlənmişdir. Tədbirlər Planında içməli su təchizatı ilə bağlı su ehtiyatlarından qənaətlə və səmərəli istifadə, iqlim dəyişmələrinin fəsadları, gözlənilən risklər, suyun bölgüsü və sair məsələlər barədə əhalinin maarifləndirilməsi, sudan istifadə ilə əlaqədar istehlakçıların müraciətlərinin operativ qaydada qəbulu, baxılma və cavablandırılması məqsədilə müasir tələblərə uyğun çağrı mərkəzlərinin təşkili, içməli su təminatında çatışmazlıqlar olan kəndlərdə subartezian quyularının qazılması və qənaət məqsədilə sayğac sisteminin tətbiq olunması, təhsil və digər müəssisələrdə su ehtiyatlarının idarə olunması, sudan qənaətli və səmərəli istifadə ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi kimi məsələlərin icrası nəzərdə tutulur.



Həmsöhbətim onu da qeyd edir ki, həmin dövlət sənədində suvarma suyunun da böhranlı vəziyyətdə idarə olunmasının zəruriliyi nəzərə alınmış, magistral və paylayıcı kanallarda su (filtirasiya) itkilərini azaltmaq üçün tədbirlərin görülməsi, su anbarlarına daxil olan və buraxılan suyun miqdarına nəzarətin artırılması, suvarma suyunun normalara uyğun verilməsinə nəzarətin gücləndirilməsi, sudan qənaətli və səmərəli istifadə, suvarma qrafikləri üzrə növbəliliyə riayət olunması ilə bağlı kənd təsərrüfatı məhsulları istehsalçılarının maarifləndirilməsi, su itkisinin qarşısının alınması məqsədilə gecə suvarmalarının təşkili və suvarma işlərinə nəzarət mexanizminin gücləndirilməsi, yağıntılar haqqında proqnozların (gündəlik, həftəlik, aylıq) sudan istifadə edən fermerlər üçün əlçatanlığının təmin edilməsi, quraqlığa davamlı bitki sortlarının əkilməsinin təbliği və dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının istehsalı zamanı suvarmada elmi yanaşmanın və innovativ texnologiyalardan (çiləmə, damcı və qapalı) istifadənin təşviqi kimi mühüm məsələlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti də məhz fəaliyyətini bu zəruri tədbirlərin icrası istiqamətində qurmağa çalışır.



Müsahibim vurğuladı ki, yeraltı suların ümumi səviyyəsinin aşağı düşməsi, öz növbəsində, subartezian quyularının iş fəaliyyətində də müəyyən çətinliklər yaradıb. Ötən il ərzində muxtar respublikada suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularına yeni qazılmış subartezian quyuları da daxil olmaqla, ümumilikdə, 64 yeni nasos quraşdırılaraq 835-i təmir edilib. Cəmiyyətin balansında 932 subartezian quyusu vardır ki, bu da muxtar respublika sakinlərini həm içməli, həm də suvarma suyu ilə təmin edir. Culfa rayonunun Yaycı kəndini içməli su ilə təmin edəcək su şəbəkəsi artıq istifadəyə verilib. Hazırda rayonun Bənəniyar kəndində yeni subartezian quyusunun tikintisi işləri davam edir. Naxçıvan Muxtar Respublikası üzrə su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2023-2025-ci illər üçün Tədbirlər Planına əsasən, ümumilikdə, 48 subartezian quyusunun tikintisi nəzərdə tutulub. Bu istiqamətdə sistemli işlər görülür.

Əkin yerlərinə suvarma sularının paylanması üçün görülən işlər barədə isə həmsöhbətimiz dedi ki, muxtar respublikamızda əkin sahələrinin suvarma suyu ilə etibarlı təmin olunması daim diqqət mərkəzində saxlanılır. Məlumdur ki, əkin sahələrində məhsulun keyfiyyətli və bol olması onun vaxtlı-vaxtında suvarılmasından asılıdır. Əkin sahələrinə suvarma suyunun verilməsi əvvəlcədən hazırlanmış suvarma planına uyğun olaraq tətbiq edilir. Bundan sonra verilən suyun daxili təsərrüfatlarda bərabər bölünməsi yerli icra hakimiyyəti orqanlarının nəzarəti ilə sudan istifadə birlikləri və bələdiyyələr tərəfindən həyata keçirilir. Hər ay üzrə dəyişən qrafikə əsasən suvarma suyu ayrılır və aid qurumlar bu suyun paylanmasını həyata keçirirlər.



Bütün dünyada olduğu kimi, ölkəmizdə də, muxtar respublikamızda da içməli su qıtlığı hökm sürməkdədir. Rayon kəndlərinin bir çoxunda quyu və artezian sularının azaldığı, hətta tamamilə çəkildiyi müşahidə olunur. Bəs, hazırkı dövrdə suya qənaət, su qıtlığının qarşısının alınması istiqamətində hansı işlər görülür? sualına cavab olaraq Səttar müəllim dedi ki, artıq uzun illərdir, mütəxəssislər bu barədə həyəcan təbili çalırlar. Yer kürəsinin, təxminən, 71 faizi su ilə əhatə olunsa da, bu suyun, təxminən, 2,5 faizi şirin su mənbələrinin payına düşür. Məlumdur ki, Yer kürəsində su resursları qeyri-bərabər paylanıb. Bəzi coğrafi ərazilərdə həddindən artıq nəmişlik olduğu halda, digər ərazilərdə quraqlıq hökm sürür. Belə olduqda isə ildən-ilə dünya əhalisinin şirin su ilə bağlı çətinlikləri artmağa davam edir. Azərbaycan da su ehtiyatları az olan ölkələrdən biridir. Ona görə də içməli su ehtiyatlarından qənaətlə və səmərəli istifadə etmək lazımdır. Bu məqsədlə əhali arasında maarifləndirici tədbirlər aparılır. Muxtar respublikamızın su ehtiyatları, onlardan düzgün istifadə yolları haqqında cəmiyyətimizin mütəxəssisləri müsahibə və məqalələrlə dövri mətbuatda çıxışlar edir, həmçinin muxtar respublika sakinləri ilə keçirilən görüşlərdə bu haqda maarifləndirici söhbətlər aparılır. Bundan sonra da bu sahədə maarifləndirici tədbirlərin aparılması davam etdiriləcəkdir.

Söhbətimiz əsnasında müsahibimizin tövsiyələri də oldu. Onları oxucularımızın diqqətinə çatdırırıq: içməli su qıtlığı bu gün qlobal sosial-iqtisadi problemlərdən biridir. Ona görə də hər birimiz sudan qənaətlə və səmərəli istifadə etməliyik. İçməli sudan ən çox məişətdə istifadə olunur. Qənaətli və səmərəli istifadə etmək isə o qədər də çətin deyil. Əvvəla, vətəndaşlarımız nəzərə almalıdır ki, hər birinin evində su sayğacı var və istifadə etdiyi suyun miqdarına görə ödəniş edir. Suya qənaət edərək həm də əlavə xərcdən xilas ola bilərsiniz. Keyfiyyətsiz, su sızıntısı olan santexnika vasitələri də böyük su itkisinə səbəb olur. Gündəlik gigiyenik təmizlik edərkən suyu bağlayaraq əllərinizi sabunlaya, dişlərinizi fırçalaya bilərsiniz. Təxminən, 3 dəqiqə vaxt aparan dişlərin fırçalanması zamanı açıq qalan krandan 40 litrə yaxın su axaraq israf olur. İlk baxışda cüzi görünən bu rəqəmin gün ərzində bir neçə dəfə minlərlə insan tərəfindən təkrarlandığını nəzərə alsaq, ciddi bir su itkisinin olduğunu dərk edirik. Paltaryuyan və qabyuyan maşınları tam dolduqdan sonra istifadə etmək lazımdır. İçməli suyun ən çox israf olunduğu yerlərdən biri də xalça və avtomobilyuma kimi təmizlik məntəqələridir. Bu cür təmizlik məntəqələrində yüksəktəzyiqli aparatlardan istifadə edərək tonlarla içməli su israf olunur. Ona görə də bu cür təmizlik zamanı texniki sudan istifadə olunması vacibdir. Təbiəti, su mənbələrini qorumaqla öz sağlamlığımızı qorumuş oluruq. Sudan qənaətlə istifadə etməklə yanaşı, həm də çalışmalıyıq ki, su mənbələrini, çay və gölləri məişət tullantıları ilə çirkləndirməyək. Suların çirklənməsi ilə yaranan ekoloji problemlər cəmiyyətimiz, həyatımız üçün olduqca təhlükəlidir. Çox təəssüf ki, həm dövlət səviyyəsində, həm də aid qurumlar tərəfindən nəzarət olunmasına, təbliğat aparılmasına baxmayaraq, vətəndaşlarımız lazımi həssaslığı göstərmirlər. Daha sağlam və uzun bir həyat üçün təbiəti, su mənbələrini, yaşıllıq zonalarını qorumalı, onlardan faydalı istifadə etməliyik.

**Səkinə BAĞIROVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## *"İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti"* mövzusunda seminar



*Dünən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə keçirilən seminarda muxtar respublikada inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan müvafiq dövlət orqanlarının əməkdaşları iştirak ediblər.*

Seminarı giriş sözü ilə açan prokurorluğun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri, inzibati məsuliyyətin əsasları, inzibati xətalar qanunvericiliyinin prinsipləri, inzibati xəta və inzibati məsuliyyət barədə məlumat verib.

Bildirilib ki, Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhali arasında sanitar-epidemioloji vəziyyətin sabitliyini, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir. İnsan və vətəndaş hüquqları və azadlıqları ali dəyərə malikdir. Bu hüquqların və azadlıqların pozulmasına yol verən bütün dövlət orqanları, qurumları və vəzifəli şəxslər məsuliyyət daşıyırlar.

Prokurorluğun cinayət təqibindən kənar icraatlar şöbəsinin rəisi, baş ədliyyə müşaviri Anar Məmmədov çıxışında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən səlahiyyətli orqanlar tərəfindən Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin tələblərinə düzgün əməl edilməsinin vacibliyini vurğulayaraq qeyd edib ki, inzibati xətanın əlamətləri aşkar olunarsa, bu barədə inzibati protokol tərtib edilməli və qanunauyğun olaraq tənbeh verilməlidir. Prokuror tərtib olunmuş inzibati protokolların qanunauyğun tərtib olunmasını yoxlayır, qanun pozuntuları aşkar edildikdə gələcəkdə bu kimi halların baş verməməsi və vəzifəli şəxslərin məsuliyyətə cəlb olunması üçün təqdimat verir. Buna görə də inzibati protokollar tərtib olunan zaman qanunvericilikdə nəzərdə tutulan prosessual müddətlərə ciddi əməl olunmalı, inzibati protokollar vaxtında tərtib olunmalıdır ki, inzibati qanunvericiliyin tələbləri pozulmasın.

Sonra mövzu ilə bağlı geniş müzakirələr aparılıb, seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ **Səbuhi HƏSƏNOV**

## Vətəndaş qəbulu aparılıb

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2023-cü ilin aprel ayından etibarən rayon və kəndlərdə vətəndaşların qəbulunu həyata keçirməyi nəzərdə tutub. Bu məqsədlə komitənin sədri Ramilə Seyidova Sədərək rayon Dəmirçi kənd icra nümayəndəliyinin inzibati binasında Dəmirçi kənd sakinləri ilə görüşüb, onların müraciətlərini dinləyib.



Görüşdə 25 kənd sakininin müraciət və şikayətlərinə baxılıb. Vətəndaşların işlə təmin olunması, aliment, mülk, mənzil-məişət probleminin həlli, ünvanlı dövlət sosial yardımının və sağlamlıq imkanları məhdud uşaqlara pensiya təyin olunması, qadınlara sərmayə kapitalının verilməsinə köməklik göstərilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlara müraciətlərlə bağlı hüquqi izahat verilib, komitənin səlahiyyət dairəsinə aid məsələlər icraata götürülüb.

Görüşdə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva iştirak edib, aidiyyəti üzrə vətəndaşların müraciətlərinə köməklik göstərilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ötən ay keçirilən kütləvi-mədəni tədbirlər yeniliklərlə yadda qaldı



Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi 2023-cü ilin mart ayında öz fəaliyyətini nazirliyin iş planına uyğun qurmuş, müvafiq fərman və sərəncamlardan, qəbul edilmiş Dövlət proqramlarından irəli gələn vəzifələr icra edilmişdir.

"8 Mart – Beynəlxalq Qadınlar Günü" münasibətilə Heydər Əliyev Sarayında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" mövzusunda keçirilən tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının kollektivlərinin geniş konsert proqramı təqdim edilmiş, nazirliyin təşkilatçılığı ilə keçirilən flaşmob şəhər sakinləri tərəfindən alqışlarla qarşılanmışdır. "Heydər Əliyev İli" çərçivəsində A.Babayevin "Xilaskar" əsəri əsasında hazırlanan eyniadlı tamaşanın məşqləri, DVD diskin və albom-kataloqun hazırlanması işi davam etdirilmişdir. "Heydər Əliyev İli" ilə bağlı mart ayı ərzində, ümumilikdə, 24 tədbir, 10 açıq dərs keçirilmişdir.

19-26 mart tarixlərdə nazirlik və "Element" şirkəti tərəfindən "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində Novruz bayramı münasibətilə "Novruz şəhərciyi" təşkil edilmiş, "Ağac bəzəmə" müsabiqəsi keçirilmiş, müsabiqədə iştirak edən komandalar tədbirin ilk günündə təşkilatçılar tərəfindən təşəkkürnamə ilə təltif olunmuşdur.

Səkkizgünlük bayram tədbirlərində 8 bədii, 23 cizgi filmi nümayiş etdirilmiş, Naxçıvan Dövlət Filarmoniyası, rayon, şəhər mədəniyyət idarə və şöbələrinin musiqi kollektivlərinin və Bakı şəhərindən dəvət edilmiş müğənnilərin 14 konsert proqramı təqdim olunmuş, Naxçıvan Dövlət Kukla və Naxçıvan Dövlət Uşaq teatrlarının hər biri 3 tamaşa, rayon xalq teatrları və folklor qruplarının 4 tamaşası nümayiş etdirilmişdir.

Bayram günlərində insanların mədəni istirahətinin təşkili məqsədilə teatrlar tərəfindən tamaşalar nümayiş etdirilmiş, 6 muzey tərəfindən muzey xidməti göstərilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikası ərazisində dislokasiya olunmuş hərbi hissə və bölmələrin əsgər və zabitlərinə şəhər və rayon mədəniyyət idarə və şöbələrinin musiqi kollektivləri tərəfindən 10 konsert proqramı təqdim edilmişdir.

30 mart tarixdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri muxtar respublikaya səfər etmiş, mədəniyyət və incəsənət müəssisələri ilə tanış olmuşlar.

Hesabat dövründə Naxçıvan Dövlət Milli Dram Teatrında "Milli Teatr Günü" və "Beynəlxalq Teatr Günü" qeyd edilmiş, 6 tamaşa nümayiş olunmuş, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı tərəfindən 25 tamaşa, Naxçıvan Dövlət Uşaq Teatrında 12 tamaşa, Babək Rayon Xalq Teatrının hazırladığı 1 tamaşa ictimaiyyətə təqdim edilmişdir.

Muzeylərin fəaliyyəti nəzarətdə saxlanılmış, ay ərzində nazirlik tərəfindən 4, muzeylər tərəfindən 12 tədbir keçirilmiş, 9 sərgi qurulmuş, 43 açıq dərs və 32 mühazirə keçirilmişdir. Mart ayında muzeyləri 79 min 284 nəfər tamaşaçı ziyarət etmiş, muzeylərə 31 yeni eksponat daxil olmuşdur.

Hesabat dövründə kitabxanaların fəaliyyəti diqqət mərkəzində saxlanılmış, ümumilikdə, 112 tədbir keçirilmiş, 78 sərgi qurulmuş, 19 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Kitabxanalarda yeni oxucu sayı 1285, oxucu gəlişi 8 min 690, kitab verilişi isə 57 min 97 nüsxə olmuş, elektron kataloqda kitabların sayı 35 min 102-dən 35 min 158-ə çatdırılmışdır.

Ay ərzində Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəz, rayon mədəniyyət sarayları, o cümlədən klub və mədəniyyət evləri tərəfindən əlamətdar və tarixi günlər, yubileylərlə bağlı 46 tədbir keçirilmiş, 23 sərgi qurulmuşdur.

Naxçıvan Dövlət Film Fondu tərəfindən ay ərzində 6 film nümayiş olunmuşdur. "Novruz şəhərciyində" cizgi filmləri və bədii filmlərin nümayişi diqqətdə saxlanılmışdır.

Sədərək Rayon Uşaq Musiqi Məktəbində müxtəlif ixtisaslar üzrə ustad dərslər təşkil olunmuş, gənclərlə iş sahəsinə diqqət artırılmışdır.

Nazirliyin *medeniyyet.nakhchivan.az* rəsmi internet səhifəsində mütəmadi olaraq məlumatlar yenilənmiş, ay ərzində səhifəyə 21 xəbər, 1 məqalə olmaqla, ümumilikdə, 22 material işlənmişdir. Nazirliyin *"nmr_medeniyyet_nazirliyi"* adlı Instagram səhifəsinin izləyicilərinin ümumi sayı 7 min 275 olmuş, səhifədə 178 paylaşım edilmişdir. Nazirliyin "Youtube", "Facebook" hesablarında və nazirlik tabeli müəssisələrin sosial şəbəkə hesablarında paylaşımlar davam etdirilmiş, izləyici sayında artım qeydə alınmışdır.

Mart ayında nazirliyin keçirdiyi tədbirlərlə bağlı "Şərq qapısı" qəzetində 13, şəhər və rayon qəzetlərində 2 material dərc olunmuş, "Nuhçıxan" İnformasiya Agentliyinin saytında 8, digər informasiya agentliklərində 15, Naxçıvan televiziyasında 11 xəbər materialı işıqlandırılmış, nazirliyin və tabeliyində olan müəssisələrin mütəxəssislərinin ölkədə və muxtar respublikada fəaliyyət göstərən KİV ilə əlaqələri davam etdirilmişdir.

Azərbaycan televiziyasının Novruz bayramına həsr olunmuş "Oğuz elinin Novruzu: Naxçıvan" verilişinin çəkilişlərində Naxçıvan şəhər və rayon mədəniyyət idarə və şöbələrinin musiqi kollektivləri geniş şəkildə iştirak etmişlər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## "Şahin" hərbi-idman oyunu

Şəhər tam orta məktəblərinin komandaları arasında "Şahin" hərbi-idman oyunu Naxçıvan şəhər ərazisində yerləşən "N" hərbi hissədə keçirilmişdir. Yarışda 7 tam orta məktəbin komandası mübarizə aparmışdır. Hərbi-idman oyununda komandalar "Sıra hazırlığı", "İntellektual müsabiqə", "Çadırın qurulması", "Darağa patron doldurulması və boşaldılması", "Avtomatın sökülməsi və yığılması", "Fiziki hazırlıq", "Maneələrin dəf olunması" və "Mülki müdafiə hazırlığı" mərhələləri üzrə öz qüvvələrini sınamışlar. Yarışda 1 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək birinci, 16 nömrəli tam orta məktəbin komandası ikinci, 11 nömrəli tam orta məktəbin komandası isə üçüncü yerə layiq görülmüşdür.



Sonda qalib komandalar təşkilatçıların diplom, fəxri fərman və kuboklar ilə mükafatlandırılmışlar.

Qeyd edək ki, birinci yerin qalibi olan 1 nömrəli tam orta məktəbin komandası aprel ayı ərzində keçiriləcək Naxçıvan Muxtar Respublika zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcəkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvanda ilk bodibildinq yarışı



Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində bodibildinqin mens fizik versiyası üzrə muxtar respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi ilə "Turan" Fitnes Klubu tərəfindən birgə təşkil olunan yarışa 22 idmançı qatılıb.

Nazirliyin şöbə müdiri Taleh İbrahimov açılış mərasimində çıxış edərək deyib ki, muxtar respublikada əhalinin, xüsusən də gənclərin sağlam həyat tərzinə cəlb olunmasına xüsusi diqqət yetirilir. Dövlətimizin idman siyasəti çərçivəsində həyata keçirdiyi işlər nəticəsində bu sahə inkişaf etdirilir, yeni nailiyyətlər əldə olunur. Bodibildinqin Naxçıvanda ilkin inkişaf mərhələsində olduğunu vurğulayan Taleh İbrahimov yarışın təşkilində təşəbbüskarlığı, əməyi və qarşılıqlı fəaliyyətinə görə "Turan" Fitnes Klubunun rəhbəri, klassik bodibildinq üzrə ölkə çempionu Həsənqulu Abdullayevə təşəkkürünü ifadə edib, idmançılara uğurlar arzulayıb.

Birinciliyin reqlamentinə əsasən 170, 175, 180, 185 və 185+ santimetr boy kateqoriyaları üzrə çıxışlar izlənilib. Mükafatçıları Əməkdar məşqçi Şəfi Hüseynov, Türkiyə milli komandasının üzvləri Volkan Zülaloğlu və Hüseyn Tabarudan ibarət münsiflər heyətinin ümumi qərarına əsasən müəyyənləşib. Rəsul Ağamalıyev (170 santimetr), Elnur Tağızadə (175 santimetr), Murad Hatəmli (180 santimetr), Əli Bahartaş (185 santimetr) və Ümid Əliyev (185+ santimetr) öz kateqoriyalarında qalib adına layiq görülüblər. Bundan əlavə, super kubok üçün yenidən səhnəyə çıxan qaliblərin arasından Ümid Əliyev baş mükafata yiyələnib.

İlk üçlük diplom, medal və kubokla, həvəsləndirici yer sahibləri fəxri fərmanla təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Yalançı din davası, yoxsa dən davası?!

*(replika)*

*Otuz il ərzində Qarabağı işğal etməklə ölkəmizə yüz milyardlarla dollar maddi zərərlər vuran təcavüzkar Ermənistanın 44 günlük müharibədən sonra məğlub olması Cənubi Qafqazda dondurulmuş soyuq münasibətləri yenidən qızışdırdı. İstər bu müharibə, istərsə də müharibədən sonrakı iki ildən artıq bir dövrdə kimin dost, kimin düşmən olduğunu göstərən hadisələr fonunda sürətlə böyük güclərin oyununa gedən İranın molla rejiminin gələcəkdə partlamağa hazır bir bomba halına gətirilməsi isə, təəssüf ki, ən optimist proqnozlar arasında son ehtimal kimi qalmaqdadır.*

Yaxın Şərq kifayət qədər mürəkkəb bir regiondur və bu coğrafiya iki yüz ilə yaxın bir müddətdə dünya siyasətindəki oyun qurucularının haqq-hesab apardığı bir qlobal arena halına gəlib. İngilislərin bu bölgəyə ayaq açması ilə törədilən sünni-şiə qarşıdurmasının ardından region ölkələri və imperialist güclər arasındakı toqquşmalar hər cür təbii sərvətlərlə zəngin bu bölgəni yoxsulluq, terror və siyasi türbulanslar məkanı halına gətirmişdir. İndi elə bir gün, elə bir saat yoxdur ki, Yaxın Şərqdən hər hansı bir qanqaraldan xəbərlər gəlməsin. Dini ideologiya adı altında milyonlarla insanın həyatına yön verən, qonşusundakı kafirlərə qucaqlaşandan sonra ağzını yaxalayıb minbər moizələrində özündən yüz kilometrlərlə aralıdakı dövlətlərə savaş elan edən və bunun əksinə, dini, dili bir müsəlman qardaşlarının ayağını qazaraq dən davasından çəkinməyən İranın molla rejimi də yarandığı gündən irticaçı siyasəti ilə əsl İslamdan nə qədər uzaq düşməklə belə xəbər başlıqlarının qara hərfləri olmaqdadır.

Əslində isə keçmişə nəzər saldıqda çox sayda xalqların bir yerdə yaşadığı bu bölgədə insanların sahib olduqları ortaq qədim tarix və mədəniyyət sayəsində burada hər kəsin bir-birini asanlıqla başa düşüb, elə müqəddəs dinimizin də buyurduğu kimi savab əməllərlə məşğul olmaq, bu fani dünyadan daha çox o biri dünyanı düşünmək üçün kifayət qədər zəngin dəyərləri olduğunu görə bilərik. Ancaq təəssüf ki, bu günün reallığına baxdıqda görürük ki, uzun ətək geyib qarşısında diz çökən möminlərə düzlükdən danışan bir insan əgər əməlində terror, edamlar, narkotika ticarəti və yalan siyasət yürüdürsə, onda o, istənilən an cübbəsinin altındakı Kalaşnikov tüfəngini də çəkib kiminsə həyatına son qoya, onunla təhdid, hədə-qorxu dilində danışa bilər. Buna görə də indi cənubda Bəndər-Abbasdan Makuya qədər kim and içib desə ki, bəs bu ölkədə hamı mələkdir və haram işlərə bir tümən də olsun, pul xərclənmir, onda deyəsən ki, yalançının başına Qarabağdan sökülüb Mərəndin bazarlarında satdığınız kərpiclər boyda daş düşsün!

Bəli, yalançını mənzilinə qədər qovarlar. Qovarlar ki, qoy dünya bilsin ki, əslində, din davası adı altında İsrail-Fələstin münaqişəsini bəhanə edib saxta siyasət yürüdən, İraq, Suriya, Yəmən kimi dövlətlərlə müharibə aparıb, Səudiyyə Ərəbistanı ilə düşmənçilik edən, küncə sıxışanda isə onunla yenidən barışan bir dövlət, görəsən, hansı müsəlman dövləti ilə səmimi dostluq edir? Hətta farsdilli Tacikistanda belə nüfuzu olmayan terror dövləti özünün ticari maraqları üzündəndir ki, on illər boyunca Xəzərin statusunun müəyyən olunması üzrə danışıqlara pəl vurub, Azərbaycanın mavi vətənində hərbi təyyarələr uçurmağa da cəsarət etdi. Qərbin sanksiyalarına qarşı milli pul vahidinin sürətlə dəyərdən düşməsi ilə əhalisinin həyat səviyyəsinin aşağı düşməsinə baxmayaraq, təcavüzkar Rusiya ilə açıq işbirliyinə gedən molla rejimi, bu mənada, ABŞ-Avropa Birliyi-Çin üçgənində ən güclü tərəf olanın, yəni ABŞ-ın kripto agenti olması ilə də diqqəti cəlb edir. Belə ki, ABŞ-ın Rusiyanı Ukraynada bacardıqca daha çox bataqlığa salmaq üçün ona hərbi yardım göstərməkdə və sanksiyalardan yan keçməkdə kömək edəcək tək ölkə vəziyyətində olan İranın hərəkətlərinə göz yumması, əslində, bu iki dövlətin düşmən deyil, gizli müttəfiq olması qənaətinə gətirib çıxarır. Ona görə də molla rejiminin öz varlığını davam etdirə bilməsi, xüsusən də ölkədaxili sosial vəziyyətin gərginləşməsi ilə yaranmış situasiyadan çıxmaq üçün güclünün yanında olmaqla özünə çıxış yolu tapması, əslində, təəccüb doğurmur. Güclünün sifarişi isə həmişə olduğu kimi, planetin hər hansı nöqtəsində olursa-olsun, onunla öz dilində danışanı ona tabe etdirmək üçün mütləq bir münaqişə ocağı yaratmaq və bunu bir-birinə yaxın xalqlar arasında törətməkdir. Otuz il ərzində "Qarabağ kartı"nı əlində saxlayıb, Azərbaycanı siyasi danışıqlarda güzəştə getməyə çalışmış Qərb bu dəfə həmin kartın əldən çıxması ilə Cənubi Qafqazın lider dövlətinin daha da güclənməməsi üçün İran variantını ortaya qoymaqdadır. Rusiya-Ukrayna münaqişəsində bunu bacarmış ABŞ-İran-Azərbaycan münasibətlərinin də korlanması üçün Ermənistanın hərzamankı maşa funksiyasından məharətlə istifadə etməklə bölgədə itirdiyini yenidən qazanmaq istəyir.

Şübhəsiz, dünyanın ən güclü dövləti hansı şərtlər daxilində olsa da, qazanacaq. Amma onun aləti olub, özünə və qonşularına zərər vuran hərəkətlərdən çəkinməyən İran-Ermənistan tandeminin gedərək yalnızlaşaraq itirəcəyinə də şübhəmiz yoxdur. Hayların heç zaman farslar üçün din qardaşı olmayacağını var saysaq, hərbi-siyasi cəhətdən Rusiyadan asılı olan və bundan qurtulmağa çalışan Ermənistanın iqtisadi olaraq təsir altına alınmasının molla rejiminin apardığı dən davasının əsl mahiyyəti olduğunu deyə bilərik. Cənub qonşumuzda yaxşı bilirlər ki, Qarabağın azad olunması ilə Ermənistanın bir gün hökmən imzalayacağı sülh müqaviləsindən sonra Türkiyə ilə də münasibətlərin normallaşması bu bölgənin supergücü qarşısında İranın mövqeyinin həmişəlik itirilməsi deməkdir. Yəqin, onlar üçün qardaş Türkiyənin dünya standartları səviyyəsində istehsal etdiyi sənaye və kənd təsərrüfatı məhsulları ilə Ermənistan bazarında rəqabət aparmaq ac toyuğun yuxuda darı görməsi kimi bir xəyal olaraq qalacaq. Bunu yaxşı bilən İranın hazırkı rejimi Azərbaycana qarşı sərsəm bəyanatlar verməklə, ölkəmiz daxilinə pozucu radikal ünsürləri yeridib, onları maliyyələşdirməklə sanki dən qardaşlarının gözünə girib, əslində, din qardaşlarına da tarixdə görünməmiş bir xəyanət edirlər. 44 günlük Vətən müharibəsində müsəlman qonşusunu deyil, qeyri-müsəlman işğalını dəstəkləməklə müqəddəs İslam dininə də xəyanət edən İran molla rejiminin cəzasını isə ondan artıq təngə gəlmiş öz xalqı verəcək.

**SAVALAN**

***İtmişdir***

Əsədov Ramazan Məsi oğlunun adına olan 67-BH-540 nömrə nişanlı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Qarxun kəndində yaşamış Niftəliyeva Rübabə Hüseyn qızının adına olan ON-456$^{C}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: info@serqqapisi.gov.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ramiyyə Əkbərova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 259**